# MURTUZƏLİYEV SERGEY MURTUZƏLİYEVİÇ



Murtuzəliyev Sergey 1963-cü il noyabrın 17-də Bakının Pirallahı qəsəbəsində dünyaya göz açmışdır. Orta məktəbi bitirdikdən sonra təyyarəçilər məktəbinə daxil olmuşdur. Buranı müvəffəqiyyətlə başa vurduqdan sonra təhsilini Yeysk Ali Hərbi Aviasiya Məktəbində davam etdirmişdir. O, bir müddət Rusiyada işləmişdir. Sonra Kürdəmirə gələrək hərbi aviasiya alayında xidmət etməyə başlamışdır. Polkovnik-leytenant rütbəsinəcən yüksəlmişdir. Rus hərbçiləri gedəndən sonra köhnə təyyarələri özü təmir edirdi. Elə o vaxtdan da bu təyyarələrdə uçmağa başladı. Qarabağa ilk uçuş edənlərdən biri də Sergey olmuşdu. Döyüş bölgələrinə əməliyyata gedənzaman onun təyyarəsi erməni yaraqlıları tərəfindən iki dəfə vurulmuşdu. O, məharətlə təyyarəni yerə endirmiş, özü də salamat qalmışdı. Sergey dəfələrlə Qarabağa uçuşlar etmiş, düşmənə ağır zərbələr endirib, onlarla ermənini məhv edərək onların zirehli texnikasını sıradan çıxarıb. Həmçinin, əhalinin təhlükəsiz yerə çıxarılmasında böyük rəşadət göstərmişdir. Sergey 30 avqust 1993-cü ildə təlim uçuşu zamanı kursantlara təyyarənin sirlərini öyrədərkən qəzaya uğrayaraq həlak olmuşdur. Dərbənd şəhərinin Darğuş kəndində dəfn edilmişdir. Evli idi. İki qızı yadigar qalıb. Azərbaycan Respublikası Prezidentinin 16 sentyabr 1994-cü il tarixli 202 saylı fərmanı ilə polkovnik-leytenant Murtuzəliyev Sergey Murtuzəliyeviçə ölümündən sonra “Azərbaycanın Milli Qəhrəmanı” adı verilmişdir. Kürdəmir Hərbi Aviasiya alayında onun büstü qoyulmuşdur.